**DILARƏ HACIYEVA**

# QAFQAZ ALBANİYASI İLƏ SARMAT-ALANLARIN QARŞILIQLI ƏLAQƏLƏRİNƏ DAİR

Vətənimizin qədim tarixini öyrənmək üçün Albaniyaya dair yazılı mənbə materiallarını və arxeoloji materialların tədqiqi çox əhəmiyyətlidir. Bu məqsədlə yazılı mənbələrdə və elmi ədəbiyyatda mövcud olan materialları tədqiqata cəlb etməklə, onları qruplaşdırmaqla Albaniyaya, alanlara və eləcə də Albaniyanın sarmat-alan tayfaları ilə qarşılıqlı əlaqələrinə dair tutarlı elmi nəticələr əldə etmək mümükündür.

Alanların tarixinin öyrənilməsi, onların meydana çıxdığı, yayıldığı və məskunlaşdığı məkanları, eləcə də qonşu xalqlar və dövlətlərlə əlaqələrini öyrənmək üçün arxeoloji tədqiqatların əhəmiyyəti çox böyükdür. Bu baxımdan ilk növbədə alanların tarix meydanına çıxması vaxtını dəqiqləşdirmək üçün arxeoloji tədqiqatlara müraciət edilir. Hələ 20-ci əsrin 20-ci illərində Volqaboyunun son sarmat mədəniyyəti ilə uyğun olan Stufe abidələri alanlara aid edilmişdir (1) .

Sarmat-alanların Qafqaz Albaniyası ilə əlaqələrini öyrənmək üçün Azərbaycanda sarmat-alan tayfalarının izlərinə həsr edilmiş məqalədə İqrar Əliyev və Qardaşxan Aslanov alanların Azərbaycan ərazisində yayılması, maddi mədəniyyət nümunələrinin mövcudluğu, xüsusilə katakomba qəbirləri barədə maraqlı məlumatlar vermişlər. Bu, arxeoloji abidələrin alanlara dair yazılı mənbələri təsdiq edir, eləcə də onların yayılma arealını müəyyənləşdirmək imkanı verir (2).

Tədqiqatlar alanların I əsrdə Kambisendə peyda olmasını, buranın Sakasena ilə birlikdə irandilli tayfaların yeni metropoliyasına çevrilməsi fikrini irəli sürmüşdür. Həmçinin katakomba qəbirləri mədəniyyəti daşıyıcılarının sarmat-massaget-alan mənşəli tayfalardan ibarət olduğu təsdiqlənmişdir (3).

Tədqiqatlara görə alanlar Romanın əyalətləri üçün daimi təhlükə olan Dərbənd keçidindən hücum etməklə İberiyanı təhlükə altında qoyaraq, Parfiya və Atropatenanı darmadağın etmişdilər (4).

Yazılı mənbədə bildirilir ki, alanlar 135-ci ildə Dəryal və Dərbənd keçidlərindən istifadə etməklə Qafqaz üzərindən yürüşlər həyata keçirdilər, Atropatenanı xaraba qoyaraq Kappadokiyaya qədər gedib çıxdılar. Onlar Şimali Qafqazın bir sıra tayfaları ilə əlaqəyə girməklə Cənubi Qafqazda fəlakət mənbəyinə çevrildilər. Bu hadisələr öz əksini antik mənbələrdə və gürcü salnamələrində tapmışdır (5).

Eyni zamanda Azərbaycan ərazisində aşkar edilmiş katakomba qəbirlərinin tədqiqi sarmat-alanların tarixini bir qədər də ətraflı izləməyə imkan verir (45; 46; 47; 48; 49; 50; 51).

Katakomba qəbir tiplərinin arxeoloji tədqiqi baxımından V.N.Əliyevin Babadərvişdə aşkar etdiyi qəbir də böyük maraq doğurur. V.N.Əliyev həmin qəbirə həsr etdiyi məqaləsində maraqlı fikirlər irəli sürmüşdür. Müəllif qəbrin təsvirini vermiş, məlum olan bu tip qəbirlərlə müqayisələr aparmışdır (6).

İ.A.Babayev Azərbaycan ərazisində antik dövrə dair aşkar edilmiş qəbir tiplərindən bəhs edərkən katakomba qəbilərinə xüsusi yer ayırmışdır. Müəllif Mingəçevirdə və Qəbələdə aşkar edilmiş katakombaların təsvirini vermiş, dövrünü, digər qəbir tipləri ilə müqayisəsini və bu tip qəbirlərin yayıldığı əraziləri təhlil etmişdir. Əsərdə İ.A.Babayev katakomba qəbirlərinin mənşəyi məsələsini geniş şərh etmiş, bu barədə digər tədqiqat nəticələrinə də toxunmuşdur. Müəllif ilk növbədə Şimali Qafqazın sarmat qəbirlərini tədqiq edən K.F.Smirnova istinad edərək bu tip qəbirl□rin mənşəyinin tam öyrənilmə-

diyini qeyd etmişdir. İ.A.Babayev haqlı olaraq bildirir ki, bu tip qəbir abidələrinə, yaxud onun müxtəlif növlərinə geniş ərazilərdə Volqaboyu, Uralətrafı, Şimali Qafqaz və hətta Orta Asiyada rast gəlinmişdir ki, adətən bunları sarmat tayfaları ilə əlaqələndirirlər. K.F.Smirnov bu abidələrin ən qədiminin Volqaboyunda, Ural ətrafında aşkar olunduğu və e.ə. V əsrə-savromat dövrünə aid edildiyini bildirilmişdir( 9; 10 ;11; ).

S.M.Qazıyev Mingəçevir katakombalarının mənşəyinin aydınlaşdırılması üçün müxtəlif ölkələrdən aşkar edilmiş bu nüv abidələrin xronoloji cəhətdən dövrləşdirilməsini və dövrün siyasi vəziyyətinin nəzərə alınmasını məsləhət bilmişdir. Müəllif Şimali Qafqazda, eləcə də Azərbaycanda katakomba qəbirlərinin meydana çıxması tarixinin sarmat tayfasının bura yerlərə gəlişi dövrünə uyğun gəldiyi barədə fikir irəli sürmüşdür. Həmçinin Mingəçevirdəki katakombalardan aşkar edilmiş, deformasiyaya uğramış kəllə sümüyünün sarmat-alan tayfaları üçün xarakterik olduğunu bildirmişdir. Sarmat mədəniyyətinə xas olan bu qəbirlərdə rast gəlinən müxtəlif əşyalara (silahlar, bəzək əşyaları və s.) əsasən hesab edilir ki, Mingəçevirin katakomba qəbirləri sarmat-alanlara məxsusdur (12). Bu fikirlər İ.H.Əliyev tərəfindən inkişaf etdirilmişdir (14; 15), Katakomba qəbirlərinin daşıyıcılarının Albaniya ərazisinə cənubdan daxil olmasına dair fikir də bildirilmişdir (16, 17), Bu tip qəbir komplekslərinin Mingəçevirin digər tip sinxron kompleksləri ilə böyük oxşarlığa malik olduğu şərh edilmişdir. Bu qəbirlərdən aşkar edilmiş müxtəlif əşyalar, Albaniyaya müxtəlif əlaqələr vasitəsilə gətirilə bilərdi. Bunların oxşarlarına digər sinxron qəbirlərdə də rast gəlinməsi, müəyyən ölkələrlə Albaniyanın yerli əhalisinin sıx əlaqəsindən xəbər verir (18). Mingəçevir katakomba qəbirlərindən aşkar edilmiş kəllələrin antropoloji tədqiqi onun mənşəyinə dair qəti fikir söyləməyə imkan vermir. Tədqiqatçılar bu qəbirlərdəki kəllələrin digər qəbirlərdən aşkar edilən kəllələrdən yalnız deformasiyaya uğramaları ilə fərqləndiyini təsdiq edirlər (13).

İ.A.Babayevin sarmat-alan tayfalarına, eləcə də onların Qafqaz Albanları ilə qarşılıqlı əlaqələrinə dair elmi fikirləri xüsusi maraq doğurur. Müəllif bildirir ki, b.e.ə. I minilliyin II yarısında və b.e. hüdudlarında Albaniyadan şimalda yerləşən əraziləri sarmat-savromat köçəri çöl tayfaları tuturdu. Bu, hərbiləşmiş tayfalar daim cənuba doğru hərəkət etmişlər. Savromat tayfaları dəfələrlə Cənubi Qafqaz ərazisindən cənuba yürüşlər etmişlər (19). Strabonun məlumat verdiyi kimi, bəzən İberiya və Albaniya çarlarının özləri şimal qapılarını açır və bu tayfaları öz ölkələrindən buraxırdılar, yaxud lazım olanda onları öz ölkələrinə cəlb edirdilər. Bəzən şimal tayfaları bu ölkələri qarət edir və təsərrüfata ziyan vururdular (20;21). Görünür ki, bu yürüşlər zamanı köçərilərin ayrı-ayrı qrupları müxtəlif səbəblərə görə Cənubi Qafqazda qalıb məskunlaşdılar. Bu köçəri elementlər Cənubi Qafqazın yerli oturaq xalqlarından mədəniyyət cəhətdən geri qalırdı. Eləcə də onlar say etibarilə yerli əhalidən az idilər. Buna görə də bu gəlmə köçərilər çoxsaylı və mədəni cəhətdən inkişaf etmiş yerlilərlə assimilyasiya məruz qalmışlar. Lakin gəlmələr də yerlilərə müəyyən təsir göstərmişlər. Bu, təsir xüsusilə silahlanmada aydın şəkildə hiss olunur. Albaniyadan şimalda olan ərazilərdəki antik dövr abidələrində bu təsir hiss olunur. Bu, dəfn adəti və ayrı-ayrı qəbir əşyaları kompleksindən də görünür (22; 23; 24; 25; 26; 27; 28; 29, 30; 31).

İ.A.Babayev Mingəçevir materialları əsasında Azərbaycanda katakomba dəfn adəti barədə dəyərli nəticələr çıxarmışdır. B nəticələrdən tədqiqat zamanı bəhrələnmək çox əhəmiyyətlidir. Alimin tədqiqatına əsasən bu qəbir tipləri dövrünə görə sarmat-alanların cənuba aktiv yayılması dövrü ilə üst-üstə düşür. Mingəçevirdə ilk katakombalar b.e. I əsrinin sonlarına aiddir. Yəqin bu adət burada sarmat dünyasının təsiri olduğu zaman meydana çıxmışdır. Lakin başlanğıcda bu təsir zəif olmuşdur. Beləliklə, əgər ilk Mingəçevir katakombaları gəlmə alanlara məxsus olsa da onlar güclü şəkildə

**Tarix və onun problemləri, №1 2010**

assimilyasiyaya məruz qalmışdılar. Lakin, ola bilsin ki, onlar yerlilərə məxsusdur, ancaq alanlarla qarışmış əhalinin nümayəndələridir, yaxud ilk katakomba qəbirləri Mingəçevirin başqa sinxron qəbirlərindən başlıca olaraq qəbirlərin tikinti formasına görə fərqlənir. Dəfn kameralarının özündə meyid bükülmüş şəkildə qoyulmuşdur. Belə elementlər sarmat dəfn adətinə xasdır. Sarmat-alan elementləri Mingəçevirin b.e. IV-VII əsrlərinə aid son dövr katakomba qəbirləri üçün daha səciyyəvidir. Görünür, bu, şimaldan gələn əhalinin kəmiyyətinin artması ilə əlaqədardır ki, yazılı mənbələrdə də təsdiqini tapmışdır (32).

Yuxarıda toxunulan tədqiqatlarla bərabər digər bir sıra araşdırmalar da mövzunun öyrənilməsi üçün müəyyən əhəmiyyət kəsb edirlər. Bu əsərlərdə də alanların ümumi tarixi, təsərrüfat həyatı və şəhərsalma mədəniyyəti tədqiq edilmişdir (33; 34; 35; 36; 37; 38; 39; 40; 41; 42; 43; 44).

Ümumiyyətlə Azərbaycan ərazisində aşkar edilmiş katakomba qəbirlərinin tədqiqi də sarmat-alanların tarixini bir qədər də ətraflı izləməyə imkan verir (45; 46; 47; 48; 49; 50; 51).

Beləliklə, alanların yayılma arealının onların Azərbaycanla əlaqələrinin öyrənilməsi Azərbaycanın (Albaniya və Atropatena) və bütünlüklə Cənubi Qafqazın qədim tarixinin bir sıra məsələlərini daha dərindən tədqiqinə imkan verir. Tədqiqat belə bir nəticə çıxarmağa imkan verir ki, mövcud olan yazılı mənbələr, tarixi və arxeoloji tədqiqatların nəticələri Qafqaz Albaniyası, alanlar, alanların Şimali Qafqazda məskunlaşdıqları ərazilər, onların qonşuları (gürcü, Dağıstan tayfaları, çeçen və inquş tayfaları), qonşu dövlətlər, xüsusilə Qafqaz Albaniysı ilə qarşılıqlı əlaqələrinə dair maraqlı məlumatlar mövcuddur. Bu məlumatlar Albaniya ilə alanlar arasında qarşılıqlı əlaqələrin, xüsusilə hərbi münaqişələrinin tarixinin, həmçinin siyasi, iqtisadi, mədəni münasibətlərinin öyrənilməsi üçün çox böyük əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1.Скрипкин А. О времени появления аланов в восточной европе и их происхождении.

2.Алиев Играр, Асланов Гардашхан. Племена сармато-массагето-аланского круга в Азербайджане, //Древний Восток, 2, 1976. с. 218-237. Алиев И., Асланов Г. К вопросу о проникновении на территорию Азербайджана племен сармато-аланского круга в первые века нашего летоисчисления. //Мат-лы научн.конф. по аланской археол. и истории северной Осетии, Орджоникидзе, 1975. с. 43-49

3.Алиев И.Г. Сармато-аланы на пути в Иран. История Иранского государства и культуры. Москва, 1971. с. 234

4.Алиев Играр, Асланов Гардашхан. Племена сармато-массагето-аланского круга в Азербайджане, //Древний Восток, 1976. с. 218-237.

5.Мровели Леонти. Жизнь Картлийских Царей. Перевод Г.Цулая, М., 1979, 102 с.

6.Алиев В.Н Катакомба в Бабадервише. //ИАН Аз ССР, серия истории, философии, права, 1969, №4.

7.Бабаев И.А. Раскопки городища и могильника Кабалы. АО, 1971 г.М., 1972.

8.Бабаев И.А. Города Кавказкой Албании (в IV в. до н. э.), Баку, Элм, 1990, с. 115.

9.Смирнов К.Ф. Археологические исследования в районе Дагестанского селения Тарки в 1948-1949 гг. МИА, 1951, №23, с.226-272.

10.Габуев Т.А. Аланские курганы у с. Брут в Северной Осетии // Первая Международная научная конференция. «Осетиноведение: история и современность». Владикавказ, 1991.

11.Бабаев И.А. Города Кавказкой Албании (в IV в. до н. э.), Баку, Элм, 1990, с. 115.

12.Qazıyev S.M. Qəbələdə dəfn adətlərinə dair. – AMM. Bakı, 1965, s.VI. s.242.

13.Алиев И.Г. Сармато-аланы на пути в Иран. История Иранского государства и культуры. Москва, 1971.

14.Алиев Играр, Асланов Гардашхан. Племена сармато-массагето-аланского круга в Азербайджане, //Древний Восток, 2, Ереван, 1976. с. 218-237.
15.Халилов Дж.А. Материальная культура Кавказской Албании. Баку, 1985.с.23-24.
16.Бабаев И.А. Города Кавказкой Албании (в IV в. до н. э.), Баку, Элм, 1990, с. 115.
17.Бабаев И.А. Города Кавказкой Албании (в IV в. до н. э.), Баку, Элм, 1990, с. 115.
18.Касимова Р.М. О краниологических материалах из раскопок в Мигечауре. В кн.: Вопросы истории Кавказской Албании. Баку, 1962. с.46-47.
19.Алиев И.Г. Сармато-аланы на пути в Иран. История Иранского государства и культуры. Москва, 1971.
20.Страбон. География. (Пер., статья и комм. Г.А.Стратановского). Ленинград, 1964.
21.Алиев И., Асланов Г. К вопросу о проникновении на территорию Азербайджана племен сармато-аланского круга в первые века нашего летоисчисления. //Мат-лы научн.конф. по аланской археол. и истории северной Осетии, Орджоникидзе, 1975.
22.Капанадзе Д.Г. Грузинская нумизматика. Москва, 1955. с.208-225.
23.Смирнов К.Ф. Археологические исследования в районе Дагестанского селения Тарки в 1948-1949 гг. МИА, 1951, №23, с.226-272.
24.Смирнов К.Ф. Археологические исследования в Дагестане в 1948-1950 годах. КСИИМК, 1952, №45. с.83-97.
25.Смирнов К.Ф. Сарматское катакомбные погребения Южного Приуралья – Поволжья и их отношение катакомбам Северного Кавказа. – В кн.: Материалы по археологии и древней истории Северной Осетии. Ордженкидзе, 1975,
26.Мунчаев Р.М. Новые сарматские памятники Чечено-Ингушетии. СА, 1965, № 2. с.174-184.
27.Нечаева Л.Г. Об этнической принадлежности подбойных и катакомбных погребений сарматского времени в Нижнем Поволжье и на Северном Кавказе. // Исследования по археологии СССР, Ленинград, 1961.с.151-159.
28.Касимова Р.М. О краниологических материалах из раскопок в Мигечауре. В кн.: Вопросы истории Кавказской Албании. Баку, 1962. с.46-47.
29.Абрамова М.П. Новые погребения сарматского времени на Кабардино-Балкарии. СА, 1968, № 3.с.114.
30.Гайдукович В.Ф. Новые эпиграфические данные о Боспорских черепичных эргастериях. СА, 1958, № 28. с.476.
31.Бабаев И.А. Города Кавказкой Албании (в IV в. до н. э.), Баку, Элм, 1990, с. 115.
32.Бабаев И.А. Города Кавказкой Албании (в IV в. до н. э.), Баку, Элм, 1990, с. 115.
33.Мунчаев Р.М. Новые сарматские памятники Чечено-Ингушетии. СА, 1965, № 2. с.174-184.
34.Скрипкин А. О времени появления аланов в восточной европе и их происхождении.
35.Седов В.В. Скифо-сарматские элементы в погребальном обряде черняховской культуры. // Вопросы древней и средневековой археологии Восточной Европы. М., 1978, 99-107.
36.Каминский В.Н. Раннесредневековье катакомбы на Средней Кубани // Вопросы археологии и этнографии Северной Осетии. Орджоникидзе, 1984.
37.Габуев Т.А. Аланские погребения IV в. н.э. в Северной Осетии // СА. 1985.№ 2.
38.Габуев Т.А. Аланские курганы у с. Брут в Северной Осетии // Первая Международная научная конференция. «Осетиноведение: история и современность». Владикавказ, 1991.
39.Кузнецов В.А. Албанские племена Северного Кавказа. МИА, 1962, № 106.
40.Кузнецов В.А. Очерки истории алан. Владикавказ, 1992.
41.Кузнецов В.А. Алано-осетинские етюды. «Великий Шелковый путь» и Северный Кавказ. Владикавказ, 1993.
42.Каминский В.Н., Каминская И.В. Новые исследования христианских храмов малых форм в Западной Алании // Историко-археологический алманах. В ур. 2.Армавир, Москва, 1996.
43.Арзанцева И.А., Албегова З.Х. Культовые камни Кяфарского городища (еще раз о религиозном дуализме алан) // Древности Северного Кавказа. М., 1999.
44.Арзанцева И. А., Малашев В.Ю. Зилгинское городище и проблема аланского протогорода на Северном Кавказе // 60 лет кафедре археологии МГУ им. М.В.Ломоносова. Москва., 1999.

45.Алиев Играр, Асланов Гардашхан. Племена сармато-массагето-аланского круга в Азербайджане, //Древний Восток, 2, Ереван, 1976. с. 218-237.
46.Асланов Г.М. Матеральная культура Мингечаура I-VII вв. (На основе археологии катакомбных погребений), авт дисс. на соискание учоной степени к.и.н., Баку, 1963.
47.Бабаев И.А. Города Кавказкой Албании (в IV в. до н. э.), Баку, Элм, 1990, с. 115. Магомедов Б.В.Черняховская культура северо-западного Причерноморья. М., 1987.
48.Седов В.В. Скифо-сарматские элементы в погребальном обряде черняховской культуры. // Вопросы древней и средневековой археологии Восточной Европы. М., 1978, 99-107.
49.Халилов Дж.А. Материальная культура Кавказской Албании. Баку, 1985.с.23-24.
50.Халилов Дж., Бабаев И.А. Античные традиции в материальной культуре Кавказкой Албании. //Сб. Античность и античные традиции в культуре и искусстве народов Советского Востока, Москва, 1978.

**ДИЛЯРА ГАДЖИЕВА**

## О ВЗАИМООТНОШЕНИЯХ КАВКАЗКОЙ АЛБАНИИ С САРМАТ-АЛАНАМИ

Изучение ареола распространения аланов имеет важное значение в изучение исторического процесса развития народов, которые проживали на территории Азербайджана (Албания и Атропотена) и на севере Южного Кавказа. Из письменных источников, а также из исторических и археологических исследований выявлено очень много интересных информаций по поводу взаимоотношений Кавказкой Албании с сармат-аланами.

**DILARA HACIYEVA**

## RELATIONS OF CAUCASIAN ALBANIA WITH SARMAT – ALANS.

Studying allans distribution areal is of great importance in historical process of peoples development which lived in territory of Azerbaijan (Albania and Atropatena) and in the north of southern Caucasus.A lot interesting information in occasion of mutual relations of Caucasian Albania with sarmat - alans is revealed from written.

***Rəyçilər: AMEA-nın müxbir üzvü İ.Babayev, t.e.d.Q.Ə.Əliyev.***
***AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun «Antik dövr arxeologiyası» şöbəsinin 17 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***